


# Avro–2020: İlk mərhələ sona çatdı

## Macarıstan qrupdan çıxa bilmədi



**Futbol üzrə Avropa Çempionatı 2020-nin qrup mərhələsinin oyunlarına iyunun 23-də gecə "ölüm qrupu" adı almış F kvartetinin oyunları ilə yekun vuruldu. 13 gün Bakıdan Londona, Qlazqodan Budapeştə qədər kontinentin 11 ölkəsində davam edən futbol bayramı, insanları "evə məhkum etmiş" COVID–19-un son nəfəsində, sözün həqiqi mənasında, onların gündəlik həyatında xoş bir əhval-ruhiyyə yaratdı. Əslində bu, o demək idi ki, bəşəriyyət ölüm yayan heç bir xəstəliyə tabe olub, ona sevinc gətirən ənənəvi bayramlarından imtina etmək fikrində deyil.**

Beləcə özünün 13-cü günündə Avro – 2020 F qrupunun iki qarşılaşması ilə Münhendə doğma divarlar arasında Almaniya millisi ilə əzmkar və iddialı Macarıstan yığma komandası, Buxarestdə isə hazırki Dünya çempionu Fransa millisi ilə Avropa çempionu Portuqaliya yığma komandasının gərgin keçən matçları ilə yekun vuruldu. Hər iki oyun əvvəlcədən futbol mütəxəssislərinin və azarkeşlərinin qeyd etdikləri kimi, çox möhtəşəm idman mübarizəsi şəraitində keçdi.

Şərhimizə şərti olaraq ev sahibi qismində göstərilən Macarıstan komandası ilə Almaniya millisi arasındakı qarşılaşmadan başlamaq istəyirəm. Çünki bu qarşılaşma, az qala, Avropa futbol çempionatının tarixinə özünün






ən böyük sensasiyasını yazacaqdı.

Həmin gecə, deyəsən, Almaniya millisinin düşdüyü vəziyyətdən Bavariyadakı hava da çox narahat idi və son bir neçə gecə güclü göy gurultuları ilə müşayiət olunan leysan yağışları ara vermirdi. Qarşılaşmanın start fiti verilən kimi dərhal sonra növbəti leysan yağışlarının da sanki startı verildi. Ara vermədən yağan yağışa baxmayaraq, tamaşaçılar stadiondan getmək barədə qətiyyən düşünmürdülər. Futbol qarşılaşması isə Lövün yetirmələrinin ilk dəqiqələrdən hücuma atılması ilə diqqət çəkdi. Marko Rossinin drujinası isə geri çəkilib müdafiədə qala qurmaq fikrində deyildi və başa düşürdü ki, bu taktika alman maşınının onları "əzməsi" ilə nəticələnə bilər.

Komandaların heç birində sürpriz oyunçu yox idi. Almanların heyətində bircə Tomas Mülleri, meydanın bütün cinahlarında oynamaq keyfiyyətinə malik Leroy Sane əvəzləyirdi. Leroy həqiqətən çox fəal və rəqiblə təkbətək oyunda daha çevik və fəndgir göründü.

Statistikaya görə, buna qədər macarlar Münhendə 4 dəfə Almaniya millisi ilə qarşılaşıblar. 1991-ci ildə Almaniya millisi üzərində qələbədən savayı, onların aktivində Braziliyida keçirdikləri matçda 2-2 və AFR-lə 4-1 hesabı var. Sonuncu dəfə isə komandalar 2016-cı ilin iyununda Gelzenkirhendə yoldaşlıq matçında qarşılaşıblar. O zaman Adama Lanqın avtoqolu və Tomas Müllerin qolu ilə Almaniya millisi 2–0 qalib gəlib.

Bir neçə gün əvvəl hamı almanların şəksiz qələbə qazanacağını deyirdi. Amma unutmaq olmazdı ki, macarlar az qaldı dünya çempounu Fransanı məğlub edib Avro – 2020-də sensasiyaya imza atsınlar. Elə Didye Deşamın yetirmələri ilə heç-heçə özü də sensasiya sayılmalı idi. Marko Rossinin yetirmələrinə sadəlövh yanaşma almanlara baha başa gələ bilərdi.

Almaniya millisi ilk dəqiqələrdən meydanda hökmranlığa başladı. Lakin oyunun 11-ci dəqiqəsində almanların "Maynç" klubundan yaxşı tanıdıqları Soloi başla vurduğu ələ qolla hesabı açdı. Alman azarkeşlərinin eyforiyası bir anda yoxa çıxdı. Yenidən hamı sükuta qərq oldu. Qatı azarkeşlər dərhal 3 il əvvəl millilərinin Kazanda düşdükləri vəziyyəti xatırladılar. 2018-ci il Löv Dünya çempionatına ilk oyunda Meksikadan gözlənilməz məğlubiyyətlə başladı. Sonra İsveç üzərində qələbə qazansa da... sadə Cənubi Koreya millisinə uduzdu.

"Münhen Arenada" bir andaca həmən anların yaşantıları təkrarlandı. Fasiləyə qədər "Bundestim" hesabı bərabərləşdirə bilmirdi. Paralel gedən oyunda Portuqaliya Fransa ilə matçda bir xal əldə edib ikinci yerə qalxmış və Almaniya qrupun autsayderinə çevrmişdi. Bu isə "Bundestim"in Avro – 2020-ni tərk etməsi demək idi.

Hummelsin zərbəsi dirəyə dəyir, Ginter 7 metrdən topu düz qapıçının quçağına vurur, Qnabri boş qapının önündə topa çatmır... Dəqiqələr "əridikcə", azarkeşlərin həyəcanı daha da artır. Topa sahib olmaqda almanlar 73 faizli nəticə göstərsələr də hesabı dəyişə bilmirdilər.

İkinci hissədə də alman futbolçular yenə topa sahibolmada üstün idilər, lakin təhlükəli bir məqam yarada bilmirdilər. Macarlar əzmlə müdafiə olunur və ara-sıra əks hücumlar yarada bilirdilər. Artıq leysan dayansa da almanlar oyunda hələ ki, heç nəyi dəyişə bilmirdilər. Macarlar müdafiədə çox təmkinli və intizamlı oynayır, almanlara təhlükəli vəziyyət yaratmağa imkan vermirdilər. Amma bütün bunlara baxmayaraq, macar qolkiper Qulaçinin səhvi Almaniya futbolçularına istəklərinə nail olmağa imkan yaratdı. O küncdən verilən hava ötürməsinə ugursuz yüksəldi və bundan istifadə edən Hummels başı ilə topu Havertsə atdı. Bir metrdən qapıya düşmək isə alman oyunçuya elə də çətin olmadı. Qol: 1 –1.

Lakin elə mərkəzdən oyuna başlayan macarlar dərhal hücuma keçib almanların müdafiəsində yaranan qarışıqlıqdan uğurla istifadə etdilər və Şafer qapısını boş buraxıb topu dəf etməyə gələn Noyerin qapısından ikinci topu keçirdi. Alman azarkeşlərin sevinci uzun sürmədi. Komanda yenə son pilləyə düşdü. Bu, artıq uçurumun kənarı idi.

Alman "maşını" yenə hücumların sürətini artırdı. Kroos özü qol vurmaq üçün ələ vəziyyət yaratdı, lakin top qapı direyinin kənarından keçdi. Lakin bir dəqiqə sonra almanlar növbəti hücumda ağır məğlubiyyətdən xilas ola bildilər. Rəqiblərin cərimə meydançasında qapı xəttindən qayıdan top Qoretskinin önünə düşdü. Meydana ikinci hissədə çıxan futbolçu topa var gücü ilə zərbə endirdi və qapıçıya komandasını xilas etmək üçün heç bir şans qoymadı. Macarıstan –2, Alamniya – 2.

Lövün komandasına bu heç-heçə də qrupda ikinci yerdə 8/1 finala birbaşa vəsiqə qazanmağa bəs etdi. Lakin qeyd etdiyimiz kimi, qarşılaşmanın 84-cü dəqiqəsinə qədər Almaniya millisinin Avro– 2020-ni tərk etməsinə elə də çox vaxt qalmamışdı. Macarlar qrupun autsayderi kimi turniri tərk etsələr də, Avro –2020-nin ən azından 8/1 finalında oynamağa layiq futbol nümayiş etdirdilər və Türkiyə, Rusiya millilərindən fərqli olaraq qürurla turniri başa vurdular.

F qrupunun ikinci qarşılaşması – Fransa və Portuqaliya matçı da çox gərgin mübarizə şəraitində keçdi. Əvvəlcədən qeyd edim ki, Budapeştin "Puşkaş Arena" stadionunda keçən bu matç 11 metrlik cərimə zərbələri baxımından turnirin fərqlənən oyunu oldu.

Təbii ki, bu qarşılaşmanın favoriti Fransa millisi hesab edilirdi. Lakin Fernandu Santuşun komandası da Avropa çempionatının son qalibi kimi öz titulunu qorumaq iddiasında idi. Matçın 15-ci dqiqəsinə qədər oyun bərabər davam etdi. 16-cı dəqiqədə cərimə meydançası qarşısında topu ələ keçirən Mbappe rəqib qapısına güclü zərbə endirdi, qapıçı çevik sıçrayışla zərbəni dəf etdi.

Hər şey 27-ci dəqiqədə başlandı. Portuqaliya futbolçusu Mautinyo qapı önünə hava ötürməsi etdi. Topa yüksələn qolkiper Loris əvvəl topa, sonra isə dirsəyi ilə Danilonun üzünə zərbə endirdi. Laos dərhal 11 metrlik nöqtəni göstərdi və qapıçını sarı vərəqə ilə cəzalandırdı.

Kriştiano Ronaldo Lorislə dueldən qalib ayrılır: Portuqaliya – 1, Fransa – 0. Beləliklə, "Yuventus" klubunun və Portuqaliya millisinin 36 yaşlı ulduz hücumçusu Kristiano Ronaldo milli komandada qol sayını 108-ə çatdırdı. Yığma komandalar səviyyəsində bundan çox qol vuran yalnız İran millisinin keçmiş forvardı Əli Daeyi olub – 109 top. Beləliklə, Ronaldo daha bir qolla Dünya rekordunu təkrarlaya bilərdi.

45-ci dəqiqədə Mbappe yenidən çevik oyunu ilə seçildi və cərimə meydançasında Poqbadan aldığı ötürməni qapıya vurmaq istəyərkən, Semedo ona çarpıldı. Mateo Laos təkidlə 11 metrlik nöqtəni göstərdi. Ronaldonun "Real" Madriddəki tərəfdaşı və uzun müddət sonra Fransa millisinə qayıdan Kərim Benzema komandasının bərabərlik topunu vurdu: 1 – 1.

Ümumiyyətlə, Didye Deşamın yetirmələri Avro –2020-də çox çətinliklə qol vururlar. Sözsüz ki, onlara da daha çox idman xoşbəxtliyi hesab edilə bilər. Macarların və almanların qapısına vurulan toplar buna sübutdur. Dünya çempionu titulunu daşıyan komanda üçün bu, heç də müsbət göstərici hesab edilə bilməz.







İkinci hissə yenicə başlamışdı ki, Benzema dubla imza atdı. Pol Poqba cərimə meydançasında boş qalan yerə Kərimə ötürmə etdi. "Real"ın forvardı bir toxunuşla topu qapının uzaq küncünə göndərdi. Qol: Fransa – 2, Portuqaliya – 1. Lakin bu da son olmadı. Fransızların müdafiəçisi Jül Kunde öz cərimə meydançalarında əllə oynadı. Laos artıq üçüncü dəfə 11 metrlik nöqtəni göstərdi. Ronaldonun zərbəsi bu dəfə də qarşısıalınmaz oldu: 2 –2. Beləliklə, portuqaliyalı ulduz Dünya və Avropa çempionatlarında vurduğu qolların sayını 109-a çatdırmaqla Ali Daeyinin rekordunu təkrarladı. Bu hesab onun komandasını qrup mərhələsində üçüncü yerdən ən yaxşı nəticə ilə 8/1 finala çıxardı. Portuqaliya millisi Avro–2016-nın pley-offuna da eynən beləcə çıxmışdı və sonda çempion tituluna sahib oldu. Görək, Fernandu Santuşun komandası Avro – 2020-də də bunu bacaracaqmı?!

Beləliklə, 8/1 finalın bütün iştirakçıları məlum oldu. Qarşılaşmalar aşağıdakı kimi olacaq:

8/1 final qarşılaşmaları:

***Uels – Danimarka (26 iyun saat 20:00, Amsterdam "Johan Cruijff ArenA")***

***İtaliya – Avstriya (26 iyun saat 23:00, London, "Wembley Stadium")***

***Hollandiya – Çexiya (27 iyun saat 20:00, Budapeşt, "Puskás Aréna")***

***Belçika – Portuqaliya (27 iyun saat 23:00, Sevilya "Estadio La Cartuja")***

***Xorvatiya -İspaniya (28 iyun saat 20:00, Kopenhagen "Parken")***

***Fransa – İsveçrə (28 iyun saat 23:00, Buxarest "Arena Naçionale")***

***Almaniya – İngiltərə (29 iyun saat 20:00, London, "Wembley Stadium")***

***İsveç –Ukrayna (29 iyun saat 23:00, Qlazqo, "Hampden Park")***

**İlqar RÜSTƏMOV, "Xalq qəzeti"**